*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 531-540*

https://doi.org/10.62837/2025.10.531

**YEGANE HÜSEYNOVA**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Gəncə Dövlət Universiteti**
https://orcid.org/ 0000-0001-7431-0325
yeganesabirhuseynli@gmail.com;

# BƏXTİYAR VAHABZADƏNİN ƏSƏRLƏRİNDƏ İNSAN VƏ ZAMAN

***Xülasə:***

Xalq şairi Bəxtiyar Vahabzadənin digər yaradıcılıq sahələrində olduğu kimi, epik irsində də insan və şəxsiyyət probleminin bir mövzu istiqaməti kimi aparıcı mövqe qazanması, hər şeydən əvvəl, həyat və zaman, cəmiyyət və ictimai-sosial şərait, elmi-texniki nailiyyətlər və onun insanların mənəviyyatına, psixologiyasına və dünyagörüşünə göstərdiyi təsir və izlər özünün dolğun ifadəsini tapır. Məlumdur ki, insan bir fərd və bioloji varlıq olmaqdan başqa, həm də cəmiyyətin ictimai-mədəni, sosial-iqtisadi sferasında özünəməxsus yer və mövqe tutur. İnsanın dar mənada yaşadığı mühitlə, böyük mənada dünya ilə münasibətlərinin bir sıra elə səciyyəvi cəhətləri var ki, onu birmənalı şəkildə pozitiv yanaşma kimi qəbul etmək çətindir. Bu, həyatın və bütövlükdə dünyanın barışmaz ziddiyyətlərini, təzadlı məqamlarını da açıq-aydın büruzə verir.

**Açar sözlər: Şair, poema, zaman, insan, şəxsiyyət.**

Şairin poemalarında insan taleləri zaman və məkan hüdudlarını aşıb keçən, özünün geniş vüsət və xarakteri ilə səciyyəli keyfiyyətləri əldə edir. Burada insanla (şəxsiyyətlə) zaman arasında baş verən ziddiyyətlər, qarşıdurmalar və onu doğuran səbəblər, nəticələr ümumiləşdirmələr nəticəsində, özünəməxsus fəlsəfi mühakimələr sayəsində daha təsirli və yadda qalan olur, geniş məna və məzmun tutumu ilə seçimli bir xüsusiyyət qazanır. Əslində insan və şəxsiyyət, onun dövrün, zamanın qovğalarından dözüm və mətanətlə çıxmaq əzmi Bəxtiyar Vahabzadənin ümumi yaradıcılığında özünəməxsus bir yer tutur. Bunu yalnız onun konkret bir yaradıcılıq sahəsindəki axtarışları ilə əlaqələndirmək o qədər də məntiqli görünmür. Ancaq bir cəhəti də xüsusi olaraq vurğulamaq lazımdır ki, ayrı-ayrı dövr və zaman kəsimlərində insanı və şəxsiyyəti hərtərəfli – bütün ziddiyyət və təzadları ilə bərabər təsvir etmək cəhdlər Bəxtiyar Vahabzadənin epik yaradıcılığına müstəsna bir dəyər və əhəmiyyət aşılayır.

***Mövzunun aktuallığı.*** İnsan-şəxsiyyət, zaman-dünya və onların bir-birilə qarşılıqlı münasibətləri həmişə ədəbi-ictimai humanitar fikri düşündürən aktual və ümumbəşəri problemlər kimi prioritet istiqamət və sahələrə çevrilməsi heç də təsadüfi hal hesab olunmamalıdır. Məlumdur ki, insan bir fərd və bioloji varlıq olmaqdan başqa, həm də cəmiyyətin ictimai-mədəni, sosial-iqtisadi sferasında

özünəməxsus yer və mövqe tutur. İnsanın dar mənada yaşadığı mühitlə, böyük mənada dünya ilə münasibətlərinin bir sıra elə səciyyəvi cəhətləri var ki, onu birmənalı şəkildə pozitiv yanaşma kimi qəbul etmək çətindir. Bu, həyatın və bütövlükdə dünyanın barışmaz ziddiyyətlərini, təzadlı məqamlarını da açıq-aydın büruzə verir. Xalq şairi Bəxtiyar Vahabzadənin digər yaradıcılıq sahələrində olduğu kimi, epik irsində də insan və şəxsiyyət probleminin bir mövzu istiqaməti kimi aparıcı mövqe qazanması, hər şeydən əvvəl, həyat və zaman, cəmiyyət və ictimai-sosial şərait, elmi-texniki nailiyyətlər və onun insanların mənəviyyatına, psixologiyasına və dünyagörüşünə göstərdiyi təsir və izlər özünün dolğun ifadəsini tapır.

Şairin poemalarında insan taleləri zaman və məkan hüdudlarını aşıb keçən, özünün geniş vüsət və xarakteri ilə səciyyəli keyfiyyətləri əldə edir. Burada insanla (şəxsiyyətlə) zaman arasında baş verən ziddiyyətlər, qarşıdurmalar və onu doğuran səbəblər, nəticələr ümumiləşdirmələr nəticəsində, özünəməxsus fəlsəfi mühakimələr sayəsində daha təsirli və yadda qalan olur, geniş məna və məzmun tutumu ilə seçimli bir xüsusiyyət qazanır.

Əslində insan və şəxsiyyət, onun dövrün, zamanın qovğalarından dözüm və mətanətlə çıxmaq əzmi Bəxtiyar Vahabzadənin ümumi yaradıcılığında özünəməxsus bir yer tutur. Bunu yalnız onun konkret bir yaradıcılıq sahəsindəki axtarışları ilə əlaqələndirmək o qədər də məntiqli görünmür. Ancaq bir cəhəti də xüsusi olaraq vurğulamaq lazımdır ki, ayrı-ayrı dövr və zaman kəsimlərində insanı və şəxsiyyəti hərtərəfli – bütün ziddiyyət və təzadları ilə bərabər təsvir etmək cəhdlər Bəxtiyar Vahabzadənin epik yaradıcılığına müstəsna bir dəyər və əhəmiyyət aşılayır. Şairin poemaları üçün qəhrəman seçilən surətlər adi məktəblidən tutmuş, azadlıq mücahidləri, böyük sənət dühası ilə seçilən söz və qələm sahibləri olan şair-mütəfəkkirlərdir. "Şəbi-hicran", "Ağlar-güləyən", "İki qorxu" və "Uçun nəğmələrim" kimi ithaf xarakterli poemalarda müxtəlif dövrlərdə və ictimai-tarixi şəraitlərdə yaşamış sənətkar obrazlarının yaradılması da Bəxtiyar Vahabzadənin poema yaradıcılığı üçün təsadüfi hal hesab oluna bilməz. Bu poemalarda müxtəlif dövrlərin və zamanların həqiqət və gerçəklikləri öz əksini tapsa da, aparıcı və prinsipial meyar yenə də şəxsiyyət bir amil olaraq qalır. Bu mənada on altıncı əsrdə yaşayıb-yaradan Məhəmməd Füzuli ilə ictimai satiranı yeni bir inkişaf səviyyəsinə yüksəldən Mirzə Ələkbər Sabir arasında, faşist cəlladlarının Moabit zindanında ölümlə, işgəncə ilə üzbəüz dayanan tatar xalqının qəhrəman oğlu Musa Cəlillə paralel cəhətlər, oxşar xüsusiyyətlər axtarıb tapmaq mümkündür. Hətta bunu hər üç poemanın ümumi quruluşunda, kompozisiya və süjet xəttində ortaq mövqe tutan məziyyətləri də aşkarlamaq o qədər çətinlik törətmir. Müqayisə caizsə, "Şəbi-hicran"dakı Məhəmməd (Məhəmməd Füzuli – Y.H.) ilə "Ağlar-güləyən"dəki Səhhət surəti arasındakı fikir

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 531-540*

və məfkurə yaxınlığını, ictimai-tarixi şəraitə, mövcud üsul-idarəyə, hökmdar və əyanlara münasibətlərdəki üst-üstə düşən məqamları müşahidə etmək olar.

***"Şəbi-Hicran".*** Bəxtiyar Vahabzadənin böyük Azərbaycan şairi, Yaxın və Orta Şərqdə rübabi şeirin mahir ustadı, "türk şairlərinin babası..." kimi yüksək dəyərləndirilən Məhəmməd Füzulinin həyatı, dövrü, bir sənətkar və şəxsiyyət kimi yetişdiyi mühitin ən xarakterik cəhətlərinin əks etdirilməsi baxımından "Şəbi-hicran"(1958) poemasının əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. Poemanın qələmə alındığı dövr şair mütəfəkkirin vəfatının 400 illiyi ilə bağlı respublikada kompleks tədbirlərin həyata keçirildiyi bir ərəfəyə təsadüf edir. Məhz bununla əlaqədar olaraq şairin əsərlərinin ədəbi-tənqidi mətni əsasında mükəmməl halda seçilmiş əsərlərinin nəşri, həyatı və yaradıcılığı haqqında xüsusi məqalələr toplusu, ədəbi irsini araşdıran monoqrafiyalar işıq üzü görür. Böyük sənətkarın əsərləri əsasında romanslar və kantata yazılması, Bakının mərkəzi meydanlarından birində möhtəşəm heykəlinin ucaldılması, rəssamlar tərəfindən portretinin və əsərləri əsasında silsilə illüstrasiyaların çəkilməsi də belə bir tədbirlər sırasına daxil idi.

Elə bu dövrdə Füzulinin ədəbi-bədii əsərlərdə mükəmməl və hərtərəfli obrazını, fərdi sənətkar taleyini əks etdirən müxtəlif xarakterli əsərlər qələmə alınır. Füzuliyə həsr olunan epik nümunələr içərisində xalq şairi Rəsul Rzanın "Füzuli" poeması fraqmentlər şəklində qələmə alınsa da, əsərdə böyük sənətkarın ömür yolu, yaradıcılıq dünyasına məxsus səciyyəvi xüsusiyyətlər barədə əyani təsəvvür yaradılır:

... Deyirlər İraqdan ayrılmamısan,
Ömrün Kərbalada, Bağdadda keçib.
Əgər doğma idi sənə o yerlər,
Niyə bütün ömrün fəryadda keçib.

Bu misralarda şairin Yaxın və Orta Şərqin uzaq Kərbalasında və Bağdadında yaşanılan ömrünün ahla, fəryadla keçən anlarının ən incə cizgilərlə, poetik sözün təsir və qüdrəti ilə canlandırılması göz qabağındadır. Poemada sələf-xələf, ustad-şagird münasibətləri özünəməxsus bədii vasitələrlə boy göstərir. Rəsul Rzanın "Füzuli" poemasında toxunulan ayrılıq və nisgil bir motiv və obraz kimi Bəxtiyar Vahabzadənin də poetik ricət və mühakimələrində aparıcı bir xüsusiyyət kimi ön plana çıxarılır. Bu, hər şeydən əvvəl, özü-özlüyündə təbii təsir bağışlayır. Çünki Füzulini Füzuli edən kədərin özü bir estetik ideal kimi şairin ümumi yaradıcılgından bir ana xətt kimi keçir, hər misrasından bir motiv və obraz kimi görüntüyə gəlir. Şairin kədər və nisgilində fərdi hiss və yaşantılardan daha artıq bir səviyyədə dünyanın iztirablarını çəkmək dotələbliyi var. Kədəri və qəmi fərdi hiss və duyğudan daha artıq bir ictimai yaşantı səviyyəsinə qaldırılmasını Füzulinin poetik dünyasındakı qədər heç bir sənətkarın yaradıcılığında mükəmməl və hərtərəfli şəkildə izləmək mümükün deyil. Söz yox ki, bunu böyük

sənətkarın dünyagörüşünün əsasında dayanan müddəalara izah olunması ağlabatan görünür. Belə bir təməl üzərində Füzulinin fəlsəfəsində və dünyagörüşündə kədərin və qəmin fərdi yaşantılarından daha artıq bir dərəcədə ictimai mahiyyət daşıması bütün tərəfləri ilə müəyyənləşir. Füzulinin dünygörüşündən bəhs edən tədqiqatlarda bu özünün dərin elmi izah və şərhini tapır. Vaxtilə akademik Fuad Qasımzadə Füzulinin dünyagörüşündən, onun formalaşmasında vacib və xüsusi rolu olan məqamlara münasibət bildirərək belə bir qənaətə gəlirdi: "Füzulinin dünyagörüşündəki əsas xüsusiyyətləri düzgün təyin etmək üçün onun fəlsəfi, ictimai-siyasi görüşlərini və yaradıcılığına təsirini sufizmlə bağlı araşdırılması vacibdir". Bu mənada Xalq şairi Rəsul Rzanın "Füzuli" poeması ilə Bəxtiyar Vahabzadənin "Şəbi-hicran" poeması arasında səsləşən məqamları, şairin fərdi dünyasına məxsus ümumi və ortaq cəhətləri eyni baxış bucağından dəyər və qiymətləndirilməsi də nəzərə çarpacaq dərəcədə sezilməkdədir. Əlbəttə, bu heç də o demək deyil ki, əsərdə əsas ideya və məzmun, hadisələırin inkişaf axarı və istiqaməti belə bir eyniyyət üzərində qurulub. Rəsul Rzanın qələmə aldığı poema daha çox poema-monoloq formasındadır və belə bir struktur biçim daha çox yığcamlıq və konkretlik tələb edir və müəllif bu tələbləri böyük səriştə və professionallıqla ifadə etməyə nail olur.

Bəxtiyar Vahabzadənin "Şəbi-hicran"ı daha çox epik səhnələrin və təfərrüatların zənginliyi ilə seçilir, burada Füzulinin həyatı, mühiti, dövrünün hökmdarları və hakim dairələri ilə bağlı elə bir hadisə və münasibət yoxdur ki, unudulsun və yaxud ona ötəri də olsa toxunulmasın. Əlbəttə, bunun neqativ və pozitiv tərəflərini də qeyd etmək lazımdır. Tutaq ki, belə bir səciyyəvi cəhət "Uçun, nəğmələrim" poeması üçün elə bir önəm daşımır, poemada müəllif Musa Cəlilin uşaqlıq, yeniyetməlik və gənclik illərini epik təhkiyə üçün əsas obyekt seçmir və daha çox şair-qəhrəmanın əzab və iztirablarını və bu gərgin situasiyalarda dözüm və iradi keyfiyyətlərinə diqqət yönəldir.

***"İki qorxu" poemasında şəxsiyyət və zaman münasibətləri.*** Poema görkəmli bəstəkar Qəmbər Hüseynlinin xatirəsinə həsr olunub. Şair bəstəkarla dostluq və yaradıcılıq ünsiyyətindən bəhs etməklə yanaşı, öz aralarında, söhbət və davranışlarında sərt diktator hakimiyyəti illərindəki siyasi mövzulardakı dövlət və hakimiyyət təmsilçiləri haqqındakı fikirlərindən təşvişə düşmək hallarını doğru olaraq "İki qorxu" adı ilə oxucuya təqdim edir. "İki qorxu" poemasında şəxsiyyət və zaman münasibətləri konkret bir dövrün hüdudları çərçivəsindəki neqativ yaşantılarla əsas mövzu hədəfi seçilir. Xalq musiqisi ruhunda bəstələri ilə çoxlarının qəlbini fəth edən bəstəkara "Qəmbər tar üstündə yazır" ironiyalı münasibət, həmişə qəmli və kədərli təsir bağışlayan yaradıcı şəxsiyyətin görüşlərin birində vaxtilə "Ellər atası" olan Stalinə düşmən demək üstündə həbsxanaya düşməsi haqqında söhbət açır. Sözün sözü gətirməsi diktatorun düşünən beyinləri, tanınmış ziyalıları gedər-gəlməzə göndərmək səriştəsi" belə fikir mübadiləsində hər iki müsahibin ortaq fikir və

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 531-540*

mülahizələrinin mövzusu kimi müəyyənləşir. Nəhayət, bəstəkarın danışıqlarından qorxu və təlaşa düşməsi, hətta qarşısındakı müsahibin birdən casus olmaq ehtimalını götür-qoy etməsi poemada ciddi həyəcan doğuran anlar kimi verilir.

Dözmədi, partladı, öz əsirinə
Dönüb əsir oldu indi o özü.
O, birdən dayandı, o, birdən susdu,
Yəqin ki, çəkindi, o qorxdu məndən,
Düşündü: " bu şair bəlkə casusdu"

Bir-birini bada vermək, dostun öz dostunu danoslarla şərləmək 37-ci ildən başlayan bir vasitə və metod kimi 50-ci illərdə də işlək bir mexanizm kimi davam etdirilməsi poemada açıq-aydın özünü büruzə verir. Məhz belə bir vahimə və qorxu həm şairə, həm də bəstəkara həyəcanlı anlar yaşadır. Dilində səslənən sözlərə görə yenidən həbsxana küncünə atılmaq qorxusu, ona həmsöhbət olan müsahibi, bir fikir və məslək ortağı kimi bu prosesdə birgə iştirakı bir-birinə inamsızlığa gətirib çıxarır. Bütün gecəni vahimə içərisində yaşamaq, anbaan gözlənilən hədə-qorxu və həbs olunmaq təhlükəsi ilə qarşılaşmaq iki qorxunun təlaş və həyəcanlarını bariz şəkildə nəzərə çatdırır. Zəmanəmizin böyük sənətkarı Çingiz Aytmatovun vaxtilə Bəxtiyar Vahabzadə haqqında dediyi fikirlər bu məqamda yada düşür: "Bizi əhatə edən aləmdə hər nə varsa, şairi dərindən-dərinə düşündürür; xeyirlə şəri, gözəlliklə eybəcərliyi, böyüklüklə kiçikliyi, bir sözlə insan ruhunun ali və xırda duyğularını poeziya səviyyəsinə qaldırmaq ehtimalı Bəxtiyarın fitrətindədir". Bu obyektiv və prinsipial səciyyə daşıyan mülahizələri eynilə "İki qorxu" poemasının ümumi ruhuna da şamil etmək olar. Yaşanan ömrün anlarını, arxada qalan günlərin , ovqat və təəssüratını yenidən sənətin dili ilə canlandırmaq bacarığı burada da öz sözünü deyir. Şairin izi azdırmaq cəhdləri kimi siyasi mövzulardakı şeirləri ələk-vələk etməsi, bir çoxunu bu qorxunun nəticəsi kimi yandırması da adi bir məsələdən xəbər vermir. İllərin saraldıb soldurduğu bəzi şeirləri qoruyub saxlamaq məcburiyyəti də poemada özünün real təsdiqini tapır. Yad dilin təsiri altında ana dilinin gözəlliklərini, şəhdi-şəkərini qoruyub saxlamaq, adamları qorxu və vahimə içərisində gərgin vəziyyətə salmaq totalitar reyimin, diktator rəhbərin əsas idarəetmə üsulu kimi poemada ciddi tənqidlərə məruz qalır. Şair poemada zaman və insan münasibətlərinin ibrətamiz məqamlarını önə çəkməklə şəxsiyyətin kamillik dərəcəsini bu axarda və məcrada müəyyənləşdirməyə nail olur. İki qorxunun, vahimə və səksəkənin yaratdığı həyəcan və narahatlıq məhz zamanın ümumi məcrasında nəzərdən keçirilməsi ciddi sınaq anları ilə bərabər şəxsiyyətin dözüm və iradəsini, gələcək üçün cavabdehlik, məsuliyyət daşımasını da istisna etrmir. Poemada bu bir ideya kimi bütün parametrləri ilə qabardılır.

***"Etiraf".*** İnsanın özü ilə haqq-hesabı, şəxsi-mənəvi dünyasında baş verən ikiləşmə Bəxtiyar Vahabzadənin 1961-ci ildə qələmə aldığı "Etiraf" poemasının mövzu və problematikasını müəyyən edən mühüm xüsusiyyət kimi nəzərə çarpır.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri №10, 2025
Səh. 531-540

Əvvəlki əsərlərində olduğu kimi, şair insanı ən müxtəlif yönlərdən bədii mühakimənin mərkəzinə çəkir, onun bir-birindən tamamilə fərqli situasiyalarda əxz etmiş olduğu keyfiyyətlər üzərində təfərrüatı ilə dayanır. İnsanın kamilliyini, bir xarakter kimi bütövlüyünü üzə çıxaran dramatik məqamlar belə təsvirlərdə bütün ciddiyyəti ilə əsas münasibət və baxış bucağı kimi ön mövqeyə çəkilir. Bəxtiyar Vahabadənin poemalarında vaxtın və zamanın insanın mənəvi dünyasına aşıladığı çoxçeşidli məziyyətlər sırasında ikiləşmə, daxili – mənəvi mühakimə, iztirab və sarsıntılar, tərəddüd və özünüittiham etmə mühüm önəm daşıyan psixoloji məqamlardandır. Belə situasiyalarda epik qəhrəmanın hal və vəziyyəti, düçar olduğu əzablı və ziddiyyətli anlardan çıxış yolu axtarıb aramaq cəhdləri gərgin dramatik qarşıdurmalar nəticəsində gerçəkləşir. Bu mənada "Etiraf" poeması özünün bir sıra məziyyətləri ilə seçilir. Şair poemanın Proloq hissəsində etirafın insan mənəviyyatına gətirdiyi nəcib, humanist hissləri özünəməxsus şəkildə ifadə edir, şəxsiyyətin kamillik göstəricisi səviyyəsinə qaldırılması baxımından onun mühüm məziyyətlər daşıdığını vurğulayır. "Etiraf" poemasının aparıcı məziyyətlərindən biri də odur ki, şair bu insani hiss və düşüncəni quru, didaktik bir tərzdə oxuyucuya ünvanlamır, onu həyati məsələlər, real gerçəkliklər əsasında ümumiləşdirməyə nail olur, bu üsul təbii ki, canlı obrazlar, bir-birindən fərqli situasiyalar məcrasında daha da konkretlik qazanır. Xalq şairi Rəsul Rza vaxtilə "Etiraf" adlı poemalar kitabına yazdığı "Oxuyun, məsləhət görürük!" adlı ön sözdə dəqiq müşahidənin məhsulu olan belə bir mülahizə irəli sürürdü: "Şair poemada şablon tərənnüm üsulundan, ümumi sözlərdən qaçmış, konkret hadisələr əsasında, konkret canlı obrazlar yaratmağa meyil etmişdir. Poemanın birinci yaxşı cəhəti orasındadır ki, konfilikt, mübarizə yalnız obrazlar arasında deyl, obrazların daxilində də gedir".

Poemada konfilikt və qarşıdurma daha çox Cahangir və Bahadır arasında baş verir. Ancaq şair birdən-birə hadisələrin gərgin və pik nöqtələri ilə oxucunu üz-üzə qoymur, bunun əksinə olan bir hadisə və təfərrüatla poemanın başlanığıcındakı hadisələrlə epik təhkiyəni qurmağa cəhd göstərir. Şəhər kulubundakı təntənədə həkim-cərrah kimi minlərlə xəstəyə həyat bəxş etmiş Cahangirin humanizm üzərində bərqərar olan sənətinə ürəkdən baglılığı, yüksək insani keyfiyyətləri dilə gətirilərkən keçirdiyi hisslər, yubiley əhval-ruhiyyəsindən daha çox onda bu xeyirxah işləri bir vəzifə borcu kimi dərk etməsi onun şəxsiyyətindəki bütövlükdən xəbər verir. Ancaq çox keçmir ki, müəllif onu gərgin həyati ziddiyyətlərin içərisində təsvir edir, onun bədxah və şər qüvvələrlə mübarizədəki dözüm və iradi keyfiyyətlərini imtahan və sınaqlardan keçirir. Doğrudur, ağır cərrahi əməliyyatlardan uğurla, yüksək peşəkarlıqıa çıxan Cahangir çox nadir hallarda da olsa səhvlərə, ağlına belə gətirmədiyi halda mənəvi aşınmalara məruz qalır və bəzən belə hallar adi bir nüansı görmədən, onun gələcək fəsadlarını dəyərincə qiymətləndirmədən irəli gəlir. Və belə

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 531-540*

hadisələrdən heç şübhəsiz ki, heç kəs sığortalanmayıb, Cahangir kimi müsbət keyfiyyətləri ilə çoxlarına nümunə olacaq bir obrazın şəxsində də bunu aydın təsəvvür etmək olar. Şair qəhrəmana məhz belə bir təkamül prosesində təsvir edir, onun səhv və tərəddüd etməsini də çox təbii qarşılayır. Ancaq bu bəzən obrazın konkret vəziyyətlərdəki hərəkət və fəaliyyətinin məntiqindən irəli gəlmir. Bu bir aksioma kimi əsərin başlanğıcındakı misralarda səslənən fikirlərdə də önə çəkilir, bir növ, qəhrəmanın sonralar yol verdiyi xətalara bəraət aktına çevrilir:

Dünya qəribədir...
Dahilər belə
Həyat səhnəsində yolunu azmış,
Ən böyük ürəklər qəlbin dililə,
Ömrün son çağında etiraf yazmış.

Əsərin baş qəhrəmanı Cahangirin mənəvi ucalığa doğru addımlarında da bu bütün aydınlığı ilə nəzərə çarpır. Poemanin ikinci fəslində kolxozda anbar müdiri işləyən Rüstəmin ailəsində dünyaya gələn Bahadırın "yağ içində böyrək" kimi bəslənməsi ən yaxşı getinib-kecinməsi, öz yaşıdları arasında hamıdan seçilməsi az keçmir ki, onu eqoist hisslərlə yaşayan yeniyetmə bir gəncə çevirir. Rütbəyə, rəyasətə daim can atan Rüstəm elə ilk cəhdlərində uğursuzluğa düçar olur, hüquq fakültəsinə verdiyi imtahan onun ilk cəhddə bu istəyini həyata keçirməyə imkan vermir. Rüstəm kişinin qəflətən tutulması onun daxili-mənəvi dünyasını təlatümə salır. Anbarın gəlir-çıxarlarını sür təsbehilə hesablayan, hər şeyi yerli-yataqlı yaddaşında saxlayan Rüstəmin bir sadəlövhlüyü ucbatından yol verdiyi xəta onun həyatını büsbütün dəyişir. Onun iş başında yol verdiyi xəta küllü miqdarda anbardan taxılın qeydsiz-şərtsiz, heç bir sənəd olmadan çıxarılması, bir tərəfdən sədrin göstərişinə həmişə müticəsinə riayət edilməsi ilə bağlıdırsa, köhnə üsullarla işləmə və istehsalın yeni qayda və əsaslarla idarə olunmasından xəbərsizliyi ilə izah olunur. Prokuror Eyvazın Rüstəm kişinin cinayət əməli törətməsi müqabilində onun cəzalandırılmasını tələb etməsi Bahadırı hövsələdən çıxarır, onda intiqam hissini alovlandırır. İki il iş kəsilən Rüstəm kişinin xilası üçün Bakıda ali məhkəməyə, müraciəti əsasında ona şərti iş kəsilir.

Poemanın sonrakı fəsillərində Cahangir bir həkim-cərrah kimi öz xilaskar missiyasını yerinə yetirərək prokurorun qardaşını ölümün amansız pəncəsindən xilas edir. Bunu səhərisi gün Bakıdan dəvət edilən professorun da etiraf etməsi obrazın daxili-mənəvi aləmindəki zənginlikdən xəbər verir. Ancaq vaxtilə skripka müəllimi kimi Əlyarla səmimi ünsiyyəti olan Cahangirin öz yaxın həmdəminin həyatdan köçməsində buraxdığı səhvlərin onun sakitliyini pozması, uzun müddət vicdan əzabı çəkməsi epizodları poemada kifayət qədər təfərrüatı ilə canlandırılması əsaslı görünür. Ancaq burada Əlyarın ölümünə səbəb yalnız Cahangirin göstərilməsi və ya bunu onun özünün etiraf etməsi o qədər inandırıcı

təsir bağışlamır. Əlyarın mədəsindəki yaralardan birinin cərrahi yolla aradan gətürülməsi, digər bir yaranın artıq cərrahi əməliyyatdan sonra anasının gətirdiyi xəstəlik vərəqində qeyd olunması heç də həkimin ayağına yazılası olan xətanı bütün ciddiyyəti ilə təsdiqləməyə əsas vermir. Belə səhvlər və insan itkiləri ilə qarşılaşmaq həmişə olub və bunu həkim xətası kimi qələmə vermək bir o qədər doğru görünmür. Onsuz da ölümlə üzbəüz qalan həkimin daxili həyəcanları, keçirdiyi iztirab və sarsıntılar fonunda belə ittihamların bir qədər yumşaq tərzdə epik təhlil və təhkiyəyə gətirilməsi daha məqsədəuyğun görünərdi. Cahangiri zaman-zaman narahat edən, onu dost itkisinin səbəbkarı kimi qınaq obyektinə çevirmək də bir qədər qeyritəbii səslənir. Digər tərəfdən, həkim kimi öz peşəkarlığı ilə seçilən Cahangirin hər çətin sınaqlardan alnıaçıq və üzüağ çıxması da mümkün olan iş deyil, ictimai həyatda və cəmiyyətdə baş verən proseslərdə olduğu kimi, tibb sahəsində də mütləq xətasız keçinmək mümkünsüz bir şeydir. Ən nəhayət, özünü hüquq-mühafizə orqanlarına təslim edən Cahangirin bu hərəkəti qeyri-adiliyi ilə yadda qalır. Ola bilsin real həyatda müəyyən səhvlərə yol verən həkimlərin özünü ittiham cəhdləri belə inzibati şəkildə baş verməsin. Bu da bir həqiqətdir ki, şair poemada vicdani hiss və ləyaqəti hər şeydən önə çəkir, insanlarda görmək mümkün olmadığı əlamətləri bədii əsər vasitəsilə təlqin etməyə, görməyə və duymağa can atır. Bu, artıq sənətin və bədii sözün vasitəsilə insan mənəviyyatına təsirin bir əlaməti kimi özünü büruzə verir.

***Nəticə.*** Şairin poemalarında insan taleləri zaman və məkan hüdudlarını aşıb keçən, özünün geniş vüsət və xarakteri ilə səciyyəli keyfiyyətləri əldə edir. Burada insanla (şəxsiyyətlə) zaman arasında baş verən ziddiyyətlər, qarşıdurmalar və onu doğuran səbəblər, nəticələr ümumiləşdirmələr nəticəsində, özünəməxsus fəlsəfi mühakimələr sayəsində daha təsirli və yadda qalan olur, geniş məna və məzmun tutumu ilə seçimli bir xüsusiyyət qazanır. Əslində insan və şəxsiyyət, onun dövrün, zamanın qovğalarından dözüm və mətanətlə çıxmaq əzmi Bəxtiyar Vahabzadənin ümumi yaradıcılığında özünəməxsus bir yer tutur. Bunu yalnız onun konkret bir yaradıcılıq sahəsindəki axtarışları ilə əlaqələndirmək o qədər də məntiqli görünmür. Ancaq bir cəhəti də xüsusi olaraq vurğulamaq lazımdır ki, ayrı-ayrı dövr və zaman kəsimlərində insanı və şəxsiyyəti hərtərəfli – bütün ziddiyyət və təzadları ilə bərabər təsvir etmək cəhdlər Bəxtiyar Vahabzadənin epik yaradıcılığına müstəsna bir dəyər və əhəmiyyət aşılayır.

## İstifadə olunan ədəbiyyat

1. Aytmatov Ç. Yaradıbdır inam məni, mən inamın övladıyam. Ön söz. Vahabzadə B. “Axı dünya fırlanır". Bakı: Yszıçı, 1987
2. Hüseynova Y. Bəxtiyar Vahabzadənin poemaları, Star, Gəncə, 2023
3. Köçərli F. Azərbaycan ədəbiyyatı, İki cilddə, I c., Avrasiya press, Bakı, 2005

4. Касымзаде Ф.Ф. Мировозрение Фузули. Автореферат диссертации на соискание ученой степени доктора философских наук. Баку, 1966
5. Rza.R. “Oxuyun məsləhət görürük!”, Bəxtiyar Vahabzadə, “Etiraf”, (kitabına ön söz), Bakı. 1962,
6. Rza R. Füzuli (poema) // Seçilmiş əsərləri. Beş cilddə, IV cild, Öndər, Bakı, 2005
7. Vahabzadə B. Seçilmiş əsərləri, 2 cilddə, II cild. “Öndər" nəşriyyatı, Bakı, 2004
8. Vahabzadə B. Seçilmiş əsərləri, 11 cilddə, V cild, Çaşıoğlu, Bakı, 2002

## ЧЕЛОВЕК И ВРЕМЯ В ТВОРЧЕСТВЕ Б. ВАГАБЗАДЕ

***Ключевые слова: Поэт, поэма, время, человек, место, личность.***

**Резюме.**

Тот факт, что проблема человека и личности заняла ведущее место в качестве тематического направления в эпическом наследии народного поэта Бахтияра Вагабзаде, как и в других творческих областях, прежде всего, находит свое полное выражение в отношениях жизни и времени, общества и социально-социальных условий, научно-технических достижений и их влияния на духовность, психологию и мировоззрение людей. Известно, что человек, помимо того, что он является индивидуальностью и биологическим существом, занимает уникальное место и положение в социально-культурной, социально-экономической сфере общества. Существует ряд таких характерных аспектов взаимоотношений человека с окружающей средой, в которой он живет в узком смысле, и с миром в широком смысле, что это трудно принять как однозначно позитивный подход. Это наглядно раскрывает непримиримые противоречия и контрастные моменты жизни и мира в целом.

В стихах поэта человеческие судьбы выходят за рамки времени и пространства, обретая особые качества, отличающиеся широким размахом и характером. Здесь противоречия и конфликты между человеком и временем (личностью), а также порождающие их причины и следствия становятся более действенными и запоминающимися в результате обобщений, благодаря уникальным философским суждениям, приобретают избирательную черту с широким смыслом и содержанием. По сути, человек и личность, его решимость стойко и упорно преодолевать конфликты эпохи и времени занимают уникальное место в общем творчестве Бахтияра Вагабзаде. Связывать это только с его поисками в конкретной творческой области представляется не совсем логичным. Однако один аспект следует подчеркнуть особо: попытки всесторонне описать человека и личность в разные эпохи и периоды – со всеми

их противоречиями и контрастами – придают эпическому творчеству Бахтияра Вагабзаде исключительную ценность и значимость.

**YEGANA HUSEYNOVA**

**MAN AND TIME IN THE WORKS OF B. VAHABZADE**

***Keywords: Poet, poem, time, human, place, personality.***

**Summary**As in his other creative fields, in the epic heritage of People's Poet Bakhtiyar Vagabzade, the problem of man and personality occupies a leading position as a thematic direction. This primarily finds its full expression in the reflection of life and time, society and socio-cultural conditions, scientific and technological achievements, and their impact and traces on human spirituality, psychology, and worldview. It is well known that a human being, in addition to being an individual and a biological entity, occupies a specific place and position in the socio-cultural and socio-economic spheres of society.The relationship of humans with their immediate environment, and more broadly with the world, has several characteristic aspects that cannot be unequivocally regarded as purely positive. This vividly reveals the irreconcilable contradictions and paradoxes of life and the world as a whole.

In the poet's poems, human destinies transcend the limits of time and space, acquiring distinctive qualities characterized by their broad scope and nature. Here, the contradictions and conflicts between humans (or personality) and time, as well as the causes and consequences they generate, become more effective and memorable through generalizations and the poet's unique philosophical reflections, gaining a selective quality with broad meaning and content. In essence, humans and personality, and their determination to withstand and steadfastly overcome the conflicts of their era and time, occupy a unique place in Vahabzade's overall creative work. Linking this solely to his searches in a specific creative field would not be entirely logical. However, one aspect deserves special emphasis: the attempts to comprehensively portray humans and personality in different eras and periods—with all their contradictions and paradoxes—imbue Vahabzade's epic work with exceptional value and significance.

***Rəyçi: F.f.d., dosent Yusifli Afaq Xəlil qızı.***